**Respublika.** - 2024.- 22 noyabr. - № 257. - S. 5.

# Ekoloji diplomatiya: “Yaşıl dünya”ya çağırış

**Nurcan Süleymanova**

**Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 davam edir. Ölkəmiz iqlim dəyişmələri ilə mübarizədə birgə səylərin əhəmiyyətini dərk edir, bu istiqamətdə dayanmadan və yorulmadan çalışır. Ətraf mühitin qorunması, "yaşıl enerji" siyasəti üzrə aktiv çalışanlardan biri də məhz Leyla Əliyevadır. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva daim təbiətin qorunmasında diqqətli yanaşması, ekoloji problemlərin həllindəki öncül mövqeyi ilə seçilib. Leyla Əliyeva ekologiya sahəsində dövlət siyasətinin dəstəkçisi, həm də təbiətə sevgisini göstərən şəxsiyyət kimi tanınır.**

IDEA təşkilatının rəhbərliyi ilə bir çox mühüm layihələr həyata keçirilir. Təbii sərvətlərin qorunması, meşələrin salınması, biomüxtəlifliyin artırılması və təbiətin mühafizəsi kimi genişmiqyaslı fəaliyyətlər Leyla Əliyevanın ətraf mühitə olan həssas yanaşmasını əks etdirir. Təşkilatın ağacəkmə kampaniyaları və nəsli kəsilməkdə olan heyvanların mühafizəsi ilə bağlı layihələri ictimaiyyət arasında geniş dəstək qazanıb. Təbiət yaşıllıqları qoruyacaq, heyvanların çırpınan ürəyinə sakitlik bəxş edəcək bir nəfəsə ehtiyac duyur. Bu cəhətdən Leyla Əliyevanın fəaliyyəti xüsusi önəm daşıyır. Onun qəlbi təbiətlə bir döyünür desək, yanılmarıq. Hər ağacda, hər çiçəkdə, hər qanad çalan quşda onun şəfqətini hiss etmək mümkündür. Leyla Əliyevanın ekoloji məsələlərə olan həssaslığı və bu sahədəki fəal fəaliyyəti Azərbaycanın və dünyanın ekoloji problemlərinin həllinə böyük töhfədir.

2011-ci ildə yaradılan IDEA ekologiyanın qorunması və biomüxtəlifliyin artırılması istiqamətində çoxsaylı layihələr həyata keçirir. Kampaniyanın əsas məqsədləri təbiətin qorunması və ekoloji maarifləndirmənin artırılması, iqlim dəyişmələrinə qarşı mübarizə, heyvan və bitki növlərinin qorunması, həmçinin gənclərin ekoloji sahədə fəal iştirakını təmin etməkdir. IDEA çərçivəsində Azərbaycanda müxtəlif səviyyəli tədbirlər və layihələr həyata keçirilmişdir.

IDEA-nın təşəbbüsü ilə Azərbaycanda genişmiqyaslı ağacəkmə kampaniyalarına start verilmişdir. Hər il minlərlə ağac əkilərək ekoloji tarazlığın bərpasına töhfə verilir. Xüsusilə Abşeron yarımadasında yaşıl sahələrin artırılması istiqamətində mühüm layihələr həyata keçirilmişdir. IDEA gəncləri ekoloji məsələlərdə daha fəal iştirak etməyə çağırır. Bu məqsədlə təlimlər, seminarlar və forumlar təşkil edilir. Məktəblərdə və universitetlərdə ekoloji təhsil proqramları həyata keçirilir, beynəlxalq miqyasda ekoloji tədbirlərə dəstək verilir. Leyla Əliyeva gənclərin ekologiya sahəsində fəallığını artırmaqla, gələcək nəsillərin daha məsuliyyətli və məlumatlı olmasını təmin edir. Leyla Əliyeva həm də beynəlxalq səviyyədə ekoloji problemlərin həlli istiqamətində əməkdaşlıq qurur. IDEA-nın təşəbbüsləri Avropa, Asiya və digər bölgələrdə tərəfdaşlarla birgə həyata keçirilir. Bu, qlobal səviyyədə ekoloji problemlərə qarşı mübarizədə Azərbaycanın aparıcı rolunu gücləndirir. IDEA kampaniyasının uğurları onun bu sahədəki səylərinin miqyasını və təsirini bir daha sübut edir. Leyla Əliyevanın təşəbbüsləri qlobal ekoloji problemlərin həllinə əhəmiyyətli töhfə verir.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə 2014-cü il mayın 7-də ilk dəfə olaraq Qafqazın biomüxtəlifliyi üzrə Beynəlxalq Sammit keçirilib. Hansı ki, burada bəbirlərin mühafizəsi məsələsi geniş müzakirə edilib. 2015-ci il ildə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri adına layiq görülüb. 2017-ci il oktyabrın 16-da Bakıda IDEA İctimai Birliyi, Kənd Təsərrüfatı Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO-nun birgə təşkilatçılığı ilə Ümumdünya Ərzaq Gününə həsr olunan tədbir keçirilib. Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ilin aprel ayından "Meyvə ağaclarının əkilməsi" üzrə layihəyə start verilib. Layihə çərçivəsində bölgələrdə meyvə bağları salınaraq, aztəminatlı ailələr, o cümlədən Qarabağ müharibəsi veteranlarının və şəhid ailələrinin təmənnasız istifadəsinə verilib. Ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması məqsədilə reallaşan "Bizim həyət" layihəsi də razılıqla qarşılanır.

2021-ci il aprelin 30-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qızılağac Milli Parkına səfəri zamanı onun ərazisi, zəngin fauna və florası ilə tanış olub, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə sahilyanı və dəniz qoruqları daxil olmaqla, xüsusi mühafizə olunan təbiət ərazilərinin gələcək inkişaf perspektivlərini müzakirə edib. Leyla Əliyeva Xəzər dənizinin Kiçik Qızılağac körfəzinə

körpə balıqların buraxılması, o cümlədən ölkəmizin yaşıllıq və meşə ərazilərinin artırılmasına dəstək məqsədilə milli parkın ərazisində Eldar şamlarının əkilməsi mərasimində iştirak edib. Həmin ilin mayında IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpasına yönəlmiş genişmiqyaslı "Zəngin hövzələr" layihəsi çərçivəsində "Xıllı-Balıq" MMC, "AzVarvara" MMC, "Azerbaijan Fish Farm" MMC balıqartırma zavodlarında yetişdirilmiş 550000 ədəd körpə nərə balığının suya buraxılması mərasimi də keçirilib.

2022-ci il noyabrın 10-da IDEA İctimai Birliyinin, eləcə də könüllülərin iştirakı ilə bir çox sahilyanı təmizlik aksiyası "Sahillər təmiz qalsın" şüarı altında keçirilib. İməcilik zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları ərazini külli miqdarda tullantıdan, xüsusən də davamlı zərərə səbəb olan plastik tullantılardan təmizləyiblər. Həmçinin ötən il "Yaşıl Marafon 2023" ağacəkmə kampaniyası keçirilib. Oktyabrın 26-da Leyla Əliyeva Lerikdə ağacəkmə aksiyasında iştirak edib. "Regional İnkişaf" İctimai Birliyi (RİİB) könüllülərinin də qatıldığı aksiyada 500-dən çox çinar ağacı əkilib. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində oktyabrın 29-da "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın iştirakı ilə paytaxt Bakının Xətai rayonunda yerləşən "Gənclik" parkında noyabrın 1-də ağacəkmə aksiyası keçirilib, 1000 ədəd Eldar şamı ağacı əkilib. Bütün bu aksiyalar COP29 konfransına dəstəyin və ümumiyyətlə, təbiətin qorunması ilə bağlı təşəbbüslərə həmrəyliyin təcəssümüdür.

COP29 tədbirində Azərbaycanın beynəlxalq ictimaiyyətə göstərdiyi nümunə ekoloji siyasətin mühüm parçası olan öncül şəxslərin səyləri ilə daha da möhkəmlənir. Leyla Əliyeva COP29 çərçivəsində təşkil olunan tədbirlərdə aktiv iştirak etməklə bu sahədə öz fəallığını sübut edir. Noyabrın 15-də IDEA və "Clean Air Fund" tərəfindən panel müzakirələri təşkil olunub. IDEA İctimai Birliyi və "Clean Air Fund" (CAF) təşkilatının tərəfdaşlığı ilə COP29 çərçivəsində Azərbaycan pavilyonunda "Təmiz havanın uşaq və yeni doğulan körpələrin sağlamlığı üçün əhəmiyyəti" mövzusunda panel müzakirəsi təşkil edilib. Tədbirin açılışında çıxış edən Leyla Əliyeva aparılacaq müzakirələrin uşaqların rifahına verə biləcəyi töhfəni qeyd edib, hava çirklənməsi probleminin nəticəsi olaraq hər il milyonlarla insanın həyatını itirdiyini vurğulayıb. IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən müxtəlif layihə və tədbirlər barədə də danışan Leyla Əliyeva ötən 13 il ərzində təşkilatın təşəbbüsü ilə 5 milyondan çox ağacın əkildiyini qeyd edib. Bununla bərabər, "Məktəb bağları" layihəsi çərçivəsində Bakı şəhəri və bölgələrdə yerləşən 300 məktəbin həyətində 20 mindən çox ağacın əkildiyi panel müzakirələri iştirakçılarının diqqətinə çatdırılıb.

Noyabrın 18-də Heydər Əliyev Mərkəzində "Yer kürəsi uşaqların gözü ilə" adlı beynəlxalq fotomüsabiqənin qalibləri mükafatlandırılıb və fotosərgi açılıb. Layihə IDEA İctimai Birliyinin, COP29 Azərbaycan Əməliyyat Şirkətinin dəstəyi və "Reza Visual Academy" assosiasiyasının təsisçisi, tanınmış fotoqraf Reza Deqatinin təşəbbüsü ilə həyata keçirilib. Tədbirdə çıxış edən Leyla Əliyeva bildirib ki, bu sərgi planetimizin gözəlliklərini və onun üzləşdiyi çağırışları uşaqların gözü ilə nümayiş etdirir: "Onların baxışlarında mərhəmət, anlayış və həssaslıq var. Mən düşünürəm ki, hər birimizdə təbiəti mühafizə etmək istəyi mövcuddur. Biz bu hisslə dünyaya gəlirik, ancaq vaxt keçdikcə bunu unuduruq. Bu sərgi bizə ayaq saxlamağı, dərindən nəfəs almağı, təbiəti və həyatı hiss etməyi bir daha xatırladır. Uşaqlar təkcə bizim gələcəyimiz deyil, onlar, həmçinin bizim bu günümüzdür. Yalnız uşaqlar bu günlə yaşamağı bacarırlar".

Təbiətimizi qorumaq üçün ətraf mühitin vacibliyini dərk edən yeni nəslin yetişdirilməsi olduqca önəmlidir. Xüsusən də uşaqlara ətraf mühitin qorunmasının aşılanması bu cəhətdən xeyli əhəmiyyət daşıyır. Leyla Əliyevanın dünyasında uşaqlar gül açan çiçəklər kimidir. Onun sözlərindən də göründüyü kimi, təbiətin incəliklərini və onun üzləşdiyi çağırışları ən saf, ən dürüst mənbədən - uşaqların baxışlarından oxumaq mümkündür. Onlar qayğı və məhəbbətlə böyüyür, sevgi ilə işıqlanır. Uşaqların gözlərinə baxdıqda, orada öz gələcəyimizi görürük. Leyla Əliyeva isə bu gələcəyi qorumaq, təbiəti onlara miras qoymaq üçün yorulmadan çalışır.

Leyla Əliyeva noyabrın 19-da IDEA İB və "Great Whale Conservancy" təşkilatının əməkdaşlığı çərçivəsində həyata keçirilən "Dəniz ekosisteminin sağlamlığında və iqlim dəyişmələrinin azaldılmasında dəniz məməlilərinin rolu" mövzusunda panel müzakirələr zamanı çıxış edib. Dəniz canlılarının ekoloji balans və iqlim dayanıqlılığının təmin edilməsi baxımından əhəmiyyətini, dünyanın ən iri məməliləri olan balinaların karbon dioksidinin atmosferdə miqdarının azaldılmasında oynadığı rolu vurğulayan Leyla Əliyeva bildirib ki, 1985-ci ildə qüvvəyə minən müvafiq moratoriuma baxmayaraq, balina ovu hələ də bir sıra ölkələr tərəfindən davam etdirilir. Həmçinin Xəzər suitilərinin populyasiyasının XX əsrin əvvəli ilə müqayisədə 6 dəfəyə yaxın azalması panel iştirakçılarının diqqətinə çatdırılıb.

Noyabrın 19-da IDEA ilə ICESCO arasında niyyət protokolu da imzalanıb. COP29 çərçivəsində keçirilən imzalanma mərasimində IDEA İB-nin təsisçisi və rəhbəri Leyla Əliyeva və ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki iştirak edib. Niyyət protokolunun məqsədi iqlim dəyişmələri ilə mübarizə sahəsində ICESCO ilə IDEA arasında ikitərəfli əməkdaşlığın genişləndirilməsi, ətraf mühitin

qorunmasına yönələn tədbirlərdə birgə iştirak və hər iki təşkilatın fəaliyyət istiqamətləri ilə uyğunluq təşkil edən digər müvafiq fəaliyyətlərin müştərək icrasından ibarətdir. Hər iki təşkilat ICESCO-ya üzv dövlətlərdə ətraf mühitin mühafizəsi, torpağın deqradasiyasının qarşısının alınması, qida və su təhlükəsizliyinin təmin olunması və sair kimi istiqamətlərdə əməkdaşlığın genişləndirilməsinə dair razılığa gəlib.

Heydər Əliyev Fondunun vitse-prezidenti həmçinin Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (BTMİ) və IDEA İB-nin birgə təşkilatçılığı ilə COP29 çərçivəsində həyata keçirilən "İqlim dayanıqlığı üçün təhsilə investisiya: erkən inkişaf və ətraf mühit savadlılığının artırılması" mövzusunda müzakirələrdə iştirak edib. Leyla Əliyeva tədbirdə çıxış edərək gənclərin ekoloji problemlərin həllində fəal iştirakının qlobal miqyasda iqlim dəyişmələri ilə mübarizədə vacib rol oynadığını bildirib. IDEA İB-nin təsisçisi və rəhbəri ekoloji təhsil və maarifləndirmə proqramları, eləcə də müxtəlif beynəlxalq platformalar vasitəsilə gənclər üçün bilik və təcrübə mübadiləsinin aparılması imkanlarının artırılmasının əhəmiyyətini vurğulayıb. Təşkil olunan ekodüşərgələr, məlumatlandırma kampaniyaları və hazırlanan sənədli filmlər, eləcə də görülən işlərin nəticələri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. IDEA İctimai Birliyinin təsisçisi "LUMUN Holding" şirkətinin təşkilatçılığı ilə COP29 çərçivəsində endemik balıq növlərinin biomüxtəlifliyinin qorunmasına töhfə vermək məqsədilə təşkil olunan balıq körpələrinin suya buraxılışında da iştirak edib. Yaşıl Zonada onlayn yayımlanan aksiya çərçivəsində 50 min nərə və Xəzər qızılbalığı körpələri suya buraxılıb. Qeyd edək ki, aksiya Neftçalanın Yenikənd kəndində təşkil olunub.

Leyla Əliyevanın ekoloji məsələlərdəki fəallığı yalnız ölkəmizlə və COP29-la məhdudlaşmır. Onun COP28-dəki çıxışı, qlobal ekoloji problemlərin müzakirəsinə verdiyi töhfə və beynəlxalq platformalarda məsuliyyətli mövqeyi bu sahəyə olan sadiqliyinin və ciddi yanaşmasının bariz nümunəsidir. COP28-də etdiyi çıxışla Leyla Əliyeva yalnız Azərbaycanın deyil, ümumilikdə dünyanın ekoloji problemlərinə diqqət çəkib. Onun bu tədbirlərdə fəal iştirakı ətraf mühitin qorunması mövzusuna şəxsi qayğısını və beynəlxalq əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayır. Bu ardıcıl iştirak onun ekoloji məsələlərə necə hərtərəfli və davamlı yanaşdığını göstərir və hiss etdirir ki, bütün bunlar Leyla Əliyeva üçün ekoloji diplomatiya bir vəzifə deyil, ürəkdən gələn bir çağırışdır.

Keçən il dekabrın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP28 çərçivəsində Ümumi Qadınlar Birliyinin sədri Şeyxa Fatimə Bint Mübarəkin himayəsi altında "Qadınlar tərəqqiyə liderlik edir: Su və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda panel iclas təşkil olunub. Birləşmiş Millətlər Təşkilatının (BMT), Ümumi Qadınlar Birliyinin və İsveçrə Qadınlar və Gücləndirmə Assosiasiyasının təşkilatçılığı ilə keçirilən iclasda Leyla Əliyeva da iştirak edib. Müzakirələrdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva deyib ki, iqlim dəyişmələrinə görə Kür, Samur, Araz çaylarında suyun səviyyəsi aşağı düşür: "Volqa çayında suyun səviyyəsi enir və bu, Xəzər dənizinə də təsir edir. Biz ötən 7-8 ildə Azərbaycanda quraqlığa şahid olmuşuq və bu da aqrar sahəyə təsirini göstərir. Hökumət ölkədə 10 su rezervuarı yaratmağı planlaşdırır və bununla problem həll olunacaq. Digər məsələ isə odur ki, təəssüf, biz ölkəmizin ərazisinin 20 faizinin 30 il ərzində işğal altında qaldığı dövrdə həmin torpaqlardakı su ehtiyatlarımızdan məhrum olmuşduq".

Panel iclasından sonra iştirakçılar COP28 çərçivəsində fəaliyyət göstərən Azərbaycan pavilyonunda olublar. Pavilyonun konsepsiyası ölkəmizin zəngin flora və faunası üzərində qurulub. İnteraktiv formatda qurulan pavilyonda ölkəmizin iqlim dəyişmələri sahəsində siyasəti, atmosferə atılan istixana qazlarının azaldılması istiqamətində Azərbaycan hökumətinin tədbirləri, mitiqasiya və adaptasiya üzrə fəaliyyəti və digər layihələr barədə məlumat verilib. Azərbaycan pavilyonunda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun təşkilatçılığı ilə "İqlim dəyişməsi və ekosistemlərin bərpası" mövzusunda tədbir keçirilib. Bildirilib ki, ötən əsrin ortalarında nəsli kəsilməkdə olan ceyranların tarixi arealı bərpa olunmaqdadır və yeni ərazilərə 350 başa yaxın ceyran köçürülüb. O cümlədən işğaldan azad olunmuş ərazilərə 33 baş ceyran reintroduksiya edilib.

Göründüyü kimi, Leyla Əliyevanın çoxşaxəli fəaliyyəti onun təkcə Azərbaycanın deyil, həm də beynəlxalq ictimaiyyətin inkişafına verdiyi töhfələrdən xəbər verir. Ekoloji məsələlərdən tutmuş, mədəni irsin qorunmasına, sosial problemlərin həllindən, humanitar yardım layihələrinə qədər geniş bir spektrdə işlər görən Leyla Əliyeva gələcək nəsillər üçün nümunəvi bir şəxsiyyətdir. Onun təşəbbüsləri Azərbaycan cəmiyyətində ekoloji düşüncə tərzini formalaşdırmaqla yanaşı, ölkəmizi qlobal səviyyədə də ekoloji sahədə nümunəvi lider kimi tanıdır.